DÜNYA

# ABŞ mütəxəssisləri TRIPP marşrutunun keçəcəyi ərazidə araşdırmalara başlayıb

26 dəqiqə öncə




AECOM şirkətinin mütəxəssisləri

ABŞ-nin Ermənistandakı səfirliyinin məlumatına görə, Amerikanın AECOM şirkətinin mütəxəssisləri Yerevana gəlib. Onlar yeni dəmir yolu və infrastruktur layihələri üçün TRIPP sahəsində araşdırmalara başlayıblar.

**"Ötən həftə Ermənistanda AECOM şirkətini qəbul etdik. Şirkətin komandası və erməni tərəfdaşlar iqtisadi artıma, nəqliyyata və regional inteqrasiyaya təkan verəcək dəmir yolu layihəsi üçün TRIPP sahəsini nəzərdən keçiriblər"**, —səfirliyin bəyanatında bildirilir.

İki ay əvvəl baş nazirin müavini **Mqer Qriqoryan** ABŞ Dövlət Departamentinin fondu adından gələn AECOM nümayəndə heyəti ilə görüşmüşdü. Tərəflər elə həmin görüşdə

layihə çərçivəsində sahənin araşdırılmasına başlamaq barədə razılığa gəlmişdilər.

## İran səfiri TRIPP haqda: 'Sərhədimizdə amerikalıların olması narahatlıq doğurur, cavab verilməlidir'

**"TRIPP layihəsi çərçivəsində yaranan risklərin idarə olunması və mümkün təhdidlərin qarşısının alınması Ermənistan-İran münasibətlərinin prioritet məsələlərindən biridir"**, — bu sözləri İranın Ermənistandakı səfiri **Xəlil Şirqolami** iyulun 8-də Yerevanda keçirdiyi mətbuat konfransında deyib.

Səfir vurğulayıb ki, İranın ABŞ ilə sülh memorandumu imzalamasından cəmi 20 gün keçsə də, bu qısa müddətdə sənədin şərtləri dəfələrlə pozulub: "Buna görə də İranın öz sərhədləri yaxınlığında amerikalıların yerləşməsindən narahat olması tamamilə əsaslı və məntiqlidir. Bu narahatlıqlara aydın cavab verilməlidir".

Ermənistan hökuməti isə öz növbəsində əmin edir ki, layihənin icrası və Birləşmiş Ştatların regiondakı varlığı İran üçün hər hansı bir təhlükə və ya çağırış yaratmayacaq.

Şirqolami hesab edir ki, Ermənistan blokadadan çıxmaq üçün öz potensialından tam yararlana biləcəyi mexanizm qurmalıdır, **"amma bununla yanaşı, Birləşmiş Ştatların regional varlığından doğan risklər idarə olunmalı və İrana qarşı yönələ biləcək istənilən təhdidə dəqiq reaksiya verilməlidir".**




Marko Rubio və Ararat Mirzoyan

4 iyun

## ABŞ və Ermənistan TRIPP sazişini imzaladı

ABŞ dövlət katibi **Marko Rubio** və Ermənistanın xarici işlər naziri **Ararat Mirzoyan** "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu"nun (TRIPP) fəaliyyət mexanizmlərini müəyyən edən ikitərəfli çərçivə sazişini imzalayıblar. Ermənistandan keçəcək bu marşrut Azərbaycanı Naxçıvan eksklavı ilə birləşdirəcək.

Tərəflər sazişi ötən həftə Rubionun Yerevana qısa səfəri zamanı paraflamışdılar.

Ermənistan Xarici İşlər Nazirliyi Mirzoyanın sənədi imzaladığını əks etdirən qısa video yayımlayıb.

**"Dövlət katibi Rubio sazişi iyunun 1-də imzalayıb, sənəd Ermənistana göndərilib və indi mən Ermənistan tərəfi adından onu imzaladım. Bununla da məsafədən imzalanma prosesi tamamlanıb və saziş ratifikasiya üçün hazırdır"**, – Mirzoyan bildirib.




**Rubio** iyunun 2-də bu sazişi "Ermənistanın strateji mövqeyini kökündən dəyişdirmək imkanı" adlandırıb.

**"Bu, Azərbaycanın xüsusi önəm verdiyi və münasibətlərdə narahatlıq yaradan keçid məsələsini həll edir, amma bununla kifayətlənmir. Saziş Ermənistan iqtisadiyyatını köklü şəkildə transformasiya etmək potensialına malikdir"**, – Rubio ABŞ Senatının Xarici Əlaqələr Komitəsində deyib.

Bu sazişlə yanvarda imzalanmış TRIPP layihəsinə dair birgə çərçivə sənədinin əsas müddəaları bir daha təsdiqlənir. Sənədə əsasən, ABŞ-Ermənistan birgə müəssisəsi yaradılacaq və o, Ermənistan-İran sərhədi boyunca inşa ediləcək dəmir və avtomobil

yollarını, enerji xətlərini, eləcə də digər infrastruktur obyektlərini ən azı 49 il müddətinə idarə etmək hüququ qazanacaq.

"TRIPP Development Company"nin (TDC) 74 faiz payı ABŞ hökumətinə məxsus olacaq. İyunun 3-də ABŞ Beynəlxalq İnkişaf Maliyyə Korporasiyası (DFC) şirkətin təsis olunmasına dəstəyi rəsmən təsdiqləsə də, TRIPP infrastrukturuna yatırılması planlaşdırılan Amerika investisiyalarının həcmi açıqlanmayıb.




Rubio və Mirzoyan sazişi Ermənistanda parlament seçkilərinə bir neçə gün qalmış imzalayıblar. Ölkənin müxalifət qrupları TRIPP-in Ermənistanın sərhədlərinə təhlükə yarada biləcəyini deyirlər. İran da bu marşruta qarşı çıxır.

TRIPP ilə bağlı razılaşma ötən il avqustun 8-də Vaşinqtonda əldə olunub. Həmin gün Azərbaycan və Ermənistan arasında sülh sazişi paraflanıb. Həmin sənəddə tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıdıqları və qarşılıqlı iddiaları dayandırdıqları bəyan edilib.

## Buna da bax:

Tramp seçkiöncəsi Paşinyana dəstək verib

Şoyqu: Ermənistan dəmir yollarının idarəçiliyi başqa ölkəyə verilsə...

Tomas de Vaal: İran müharibəsi Trampın TRIPP planını çətinləşdirə bilər

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur